

# FİLOLOGİYA ELMLƏRİ DOKTORU, PROFESSOR NİZAMİ MƏMMƏDOV TAĞISOY – 75

Bu il Azərbaycanın görkəmli alimi, ədəbiyyatşünas-tənqidçi, tərcüməşünas-tərcüməçi, türkoloq, filologiya elmləri doktoru, professor, əməkdar müəllim Nizami Tağısoyun (Nizami Tağı oğlu Məmmədovun) 75 yaşı tamam olur. Nizami müəllimi uzun illərdir ki, tələbələri tərəfindən çox sevilən pedaqoq, Azərbaycan ədəbiyyatşünaslıq elminin inkişafına dəyərli töhfələr verən alim, böyük şəxsiyyət, yüksək mənəviyyatı və ali insanlıq keyfiyyətləri ilə örnək ziyalı kimi tanıyırıq. Haqqında söz düşəndə mütləq "gözəl insandır" ifadəsini də əlavə edirik. Bütün bunlar onun xarakter cizgilərini tamamlayan cəhətlər kimi Nizami müəllimə Azərbaycan ədəbi, elmi mühitdə böyük hörmət və sevgi qazandırıb. Adı çəkiləndə qeyri-ixtiyari insanın üzünə təbəssüm qonur, haqqında ən yaxşı fikirləri dilə gətirmək istəyirik. Nizami müəllimi yubileyi münasibətilə ürəkdən təbrik edir, ona can sağlığı, uzun ömür, yeni elmi nailiyyətlərlə dolu xoşbəxt illər arzulayırıq. Allah dəyərli alimimizi qorusun və hər zaman səmərəli elmi-nəzəri, pedaqoji fəaliyyəti ilə elmimizin, təhsilimizin şöhrətini artırsın. Azərbaycan intellektinə önəmli qatqıları olan professor Nizami Tağısoy kimi alimlərimizlə qürur duyuruq.

Nizami müəllimi yubileyi münasibətilə təbrik edir, ona cansağlığı, elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayırıq!

***Redaksiya heyəti***